


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

30 iyun 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 25 (3588)


# BÖYÜK QAYIDIŞ ÜÇÜN SƏFƏRBƏRİK



Qələbəmizdən ötən ilyarımda işğaldan azad olunan ərazilərimizdə bərpa-quruculuq işlərinin aparılması, nəhəng layihələrin icra edilməsi və bu prosesin davamlı xarakter daşıması dövlətimizin siyasi və iqtisadi gücünü sərgiləyir.

Ölkə başçımızın ötən dövr ərzində işğaldan azad edilən ərazilərə səfərləri, yeni infrastruktur layihələrinin təməlqoyma mərasimlərində iştirakı, görülən işlərin gedişatı ilə maraqlanması və buna şəxsən özünün nəzarət etməsi əzəli yurd yerlərimizin bərpasına, yurd həsrəti ilə yaşayan soydaşlarımızın tez bir zamanda doğma torpaqlarına qayıtmasına diqqəti həm də onun vətəndaş yanğısının ifadəsidir.

İyunun 26-da işğaldan azad edilmiş Kəlbəcər və Laçın rayonlarında səfərdə olan Müzəffər Ali Baş Komandan burada da bir çox sosial-iqtisadi, hərbi obyektlərin təməlinin qoyulmasında, açılışında iştirak edib, tikilməkdə olan bir neçə obyektdə işlərin gedişi ilə maraqlanıb.

Qeyd edək ki, hazırda bu ərazilərdə iş görmək üçün 1000-dən çox şirkət müraciət edib. Onların 300-dən çoxu xarici şirkətlərdir.

Prezidentə məlumat verilib ki, Kəlbəcərin yüksək ərazidə yerləşən dağ rayonu olaraq qışın bu yerlərdə uzun sürməsini nəzərə alaraq Murovdağ silsiləsində uzunluğu 13,5 kilometr olan dünyanın ən uzun avtomobil tuneli çəkilir. Bu da ilboyu Kəlbəcər və Laçın rayonlarına gediş-gəlişin təhlükəsizliyini təmin edəcək.

Bölgənin bərpasında xüsusi diqqət yetirilən amillərdən biri də enerji obyektlərinin tikintisidir. Dövlət başçısının qərarı ilə gözəl təbiətə malik bu yerlərdə təmiz, bərpaolunan enerji mənbələrindən istifadə ediləcək. Məqsədə nail olmaq üçün işğaldan azad edilən ərazilərdə günəş, külək və su-elektrik stansiyalarının tikilməsinə qərar verilib. Prezidentin səfər zamanı "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasının açılışında iştirak etməsi də bununla bağlıdır. Dövlət başçısı həmçinin Kəlbəcərdə "Çıraq-1" Kiçik Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə də tanış olub.

Məlumdur ki, iqtisadiyyatın, o cümlədən turizmin inkişafında, xüsusilə bu sahəyə xarici investisiyaların qoyuluşunda hava limanlarının fəaliyyəti böyük əhəmiyyət daşıyır. Füzuli Beynəlxalq Hava Limanının fəaliyyət göstərməsi, Zəngilan və Laçın hava limanlarının tikintisi əcnəbi iş adamlarının bölgəyə marağını artıracaq. Dövlət başçısı səfər zamanı Laçın Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olub. Bildirilib ki, əsası 2021-ci ildə qoyulan hava limanı 2024-cü ildə istifadəyə veriləcək. Həmin hava limanının özəlliyi ondan ibarətdir ki, Laçının 30, Şuşanın 70, Kəlbəcərin 60 kilometrliyində yerləşir. Yəni hər üç şəhərin sakinləri bu hava limanının imkanlarından rahat istifadə edəcəklər.

Kəlbəcərdə yeni yaradılmış komando briqadasına bayraq təqdimetmə mərasimindəki fikirləri isə yalnız ata nəsihətinə əməl etmək üçün gecəsini-gündüzünə qatan, Azərbaycan həqiqətlərini dünyaya çatdıran, qanıyla-canıyla Vətənə, xalqa sevgi ruhunda şərəfli ömür yaşayan bir oğul, Müzəffər Ali Baş Komandan deyə bilərdi: "Ancaq mənim iyunun 26-da bu rayonlara səfərimin əsas səbəbi bu gün - Silahlı Qüvvələr Günündə hərbçilərlə bir yerdə olmağımdır. Mən bu gün hərbçilərlə - yeni yaradılmış komando qüvvələri ilə Ordu Gününü Kəlbəcərdə qeyd etdim. Hesab edirəm ki, bunun çox böyük rəmzi mənası var. Hərbi xidmət nöqteyi-nəzərdən bu bölgə - Kəlbəcər-Laçın zonası həm iqlim, həm relyef, həm də təbiət baxımından bəlkə də ən çətin bölgədir. Ona görə bu gün mən burada olmalı idim, Müzəffər Ordumuzla bərabər olmalı idim, hər zaman olduğu kimi".

# Əməkdaşlıq möhkəmlənir və inkişaf edir






Bolqarıstan Respublikasının daxili işlər naziri Boyko Raşkovun dəvəti ilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyəti bu ölkədə iki günlük rəsmi səfərdə olub.

İyunun 23-də Bolqarıstan Respublikasının Prezidenti cənab Rumen Radev daxili işlər naziri Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Azərbaycanın Bolqarıstan üçün strateji tərəfdaş olduğunu söyləyən ölkə rəhbəri dövlətlərimiz arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, hərtərəfli əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. O, iki ölkə arasındakı dostluq münasibətlərini və Sofiya ilə Bakı arasında ümumi maraq doğuran bir sıra sahələrdə strateji dialoqu yüksək qiymətləndirib, cinayətkarlıqla mübarizədə hüquq mühafizə orqanları arasında əməkdaşlığın təşviqinin Bolqarıstanın Azərbaycanla tərəfdaşlığının yüksəldilməsi üçün mühüm amil olduğunu bildirib.

Beynəlxalq arenada hər iki dövlətin bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, olduqca mürəkkəb regionda yerləşməsinə baxmayaraq cənab İlham Əliyevin liderliyi altında respublikanın son illər böyük uğurlara imza atdığını deyən cənab R.Radev Azərbaycanın öz milli maraqlarına xidmət edən müstəqil siyasət apardığını, dünyada nüfuzunun günü-gündən artdığını vurğulayıb, səmimi salamlarını və ən xoş arzularını dövlət başçısına çatdırmağı xahiş edib.

Göstərilən diqqətə, Azərbaycan haqqında xoş sözlərinə, dəyərli fikirlərinə, eləcə də nümayəndə heyətini qəbul etdiyinə görə Bolqarıstan Prezidenti cənab Rumen Radevə təşəkkürünü bildirən daxili işlər naziri Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səmimi salamlarını Bolqarıstan Prezidentinin diqqətinə çatdırıb.

Daha sonra Bolqarıstan Respublikasının daxili işlər naziri Boyko Raşkovla general-polkovnik Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı mövcud əlaqələr yüksək qiymətləndirilib, əməkdaşlığın bütün istiqamətlər üzrə bundan sonra daha da möhkəmlənəcəyinə və inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Daxili işlər və təhlükəsizlik sahəsində ikitərəfli əlaqələrin inkişafı və dərinləşməsi imkanları, transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizənin diqqət mərkəzində dayandığı, yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının vacibliyi vurğulanıb.

Ölkələrimiz arasında tarixi dostluq əlaqələrinin inkişafını qeyd edən daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Bolqarıstana səfərindən məmnunluğunu ifadə edərək səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib. O, bolqarıstanlı həmkarları ilə əməkdaşlığa, transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürləri, terrorçuluq, kibercinayətkarlıq, insan alveri, narkotik vasitələrin qeyri-leqal dövriyyəsi, qanunsuz miqrasiya sahəsində təcrübə və məlumat mübadiləsinin həyata keçirilməsində maraqlı olduqlarını qeyd edib.

Sonda daxili işlər nazirləri "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə Bolqarıstan Respublikası Daxili İşlər Nazirliyinin Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalayıblar. Qeyd olunub ki, bu Memorandum tədris sahəsində qabaqcıl təcrübə mübadiləsinin imkanlarını genişləndirəcək və polis əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsinə öz töhfəsini verəcək.

# Torpağın bağrında, qəlbimizin ağrısındadırlar

## Ölməzlik türküsü oxuyanlar heç vaxt əlvida deməzlər...



Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmaqla adını şanlı tariximizə əbədilik həkk etdi Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu, baş çavuş Cəfərov Səid Zəfər oğlu. O, 1993-cü ilin fevral ayının 4-də Neftçala rayonunun Xolqarabucaq inzibati ərazi dairəsinə daxil olan Dördlər kəndində doğulub. Şəhid İlqar Səfərov adına Mürsəqulu kənd tam orta məktəbindən məzun olduqdan sonra 2011-ci ilin aprel ayında Səid müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində hərbi andı qəbul edib, rabitəçi kursunu bitirərək rabitə bölməsində radioteleqrafçı vəzifəsində xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2012-ci ilin oktyabr ayında ehtiyata buraxılıb.

Hərbçi peşəsinə marağı müddətli həqiqi hərbi xidmətdən sonra daha da artıb. 2013-cü ilin iyun ayının 4-də Səid Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə başlayaraq Gəncədə yerləşən “N” saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunda atıcı vəzifəsinə təyin olunub. Həmin dəstədə baş atıcı, bundan əlavə, əlahiddə patrul bölüyünün xüsusi həmlə qrupunda atıcı vəzifələri də ona həvalə edilib. Sonra qoşunların Bakının Biləcəri qəsəbəsindəki “N” saylı hərbi hissəsinə keçirilərək xüsusi təyinatlı dəstənin xüsusi həmlə və əməliyyat qruplarında atıcı, pulemyotçu-atıcı vəzifələrində bacarıqlı hərbi qulluqçu kimi qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirib.

2019-cu ilin sentyabr-oktyabr aylarında Səid Jandarm Özəl Asayiş Komandanlığına məxsus tədris mərkəzində xüsusi əməliyyatların aparılması üzrə təlim kursu keçib. Bu təlim kursunda o, öz peşə hazırlığı və məharətini təkmilləşdirib, yeni biliklərə, qabaqcıl təcrübəyə yiyələnib.

2020-ci ilin sentyabr ayının 27-də - Vətən müharibəsinin ilk günündən etibarən Səid ön cəbhədə düşmənə qarşı qətiyyətlə vuruşub. Xüsusi təyinatlının şərəfli döyüş yolu Murovdağdan başlayaraq Şuşayadək davam edib. Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin şəxsi heyəti ilə birgə Daxili Qoşunların xüsusi təyinatlıları bir neçə istiqamətdə döyüş əməliyyatlarına cəlb olunublar.

Vətən müharibəsi iştirakçısı, qoşunların Lənkəran rayonunda fəaliyyət göstərən “N” saylı hərbi hissəsində xüsusi təyinatlı dəstə komandirinin müavini – qərargah rəisi, kapitan Elnur Qasımov bildirdi ki, 2017-ci ildən Biləcəri qəsəbəsindəki “N” saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində Səidin qrup komandiri olub.

Murovdağ silsiləsi, Cəbrayıl, Füzuli, Xocavənd, Xocalı rayonlarının ərazilərində yerləşən düşmən postlarının darmadağın edilməsində, Hadrut qəsəbəsi və ətraf yüksəkliklərin işğaldan azad olunmasında mətinlik nümunələri ilə yadda qalıb. Düşmənin bir neçə hərbi avtomobildən ibarət karvanının pusquya salınaraq sıradan çıxarılması, 30 nəfərədək erməni hərbçisinin məhv edilməsində pulemyotçu kimi xüsusi rolu olub. Bundan əlavə, Elnurun sözlərinə görə, Səid Ərgünəş yüksəkliyi, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi, Tuğ kəndi, Xocalı rayonunun Quşçubaba, Çanaqçı və Sığnaq kəndləri istiqamətlərində də döyüş tapşırıqlarını cəsurluqla yerinə yetirib. Kapitan E.Qasımov qeyd etdi ki, Səid noyabrın 5-də Laçın-Şuşa yolunda döyüş zamanı mərmi qəlpələrindən yaralanıb.

Müdafiə Nazirliyinin Vətən müharibəsi iştirakçısı olan “gizir” hərbi rütbəli xüsusi təyinatlılarından birinin Cəfərovlar ailəsinə verdiyi məlumata görə, Səid noyabrın 7-də Şuşa uğrunda döyüşlərdə iştirak edərkən snayper gülləsindən ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb. Ailənin dediyinə görə, həmin xüsusi təyinatlının verdiyi bu məlumat şəhidin nəşinə baxış keçirilərkən öz təsdiqini tapıb.

15 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə Səidin 9 noyabr 2020-ci ildə Şuşada hərbi əməliyyat nəticəsində digər növ partlayışlar və ya qəlpələrlə törənmiş zədələnmələr səbəbindən şəhid olduğu yazılıb.

Şəhid hərbi qulluqçumuz 2020-ci il noyabrın 12-də doğma kəndinin qəbiristanlığında dəfn olunub.



Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15, 29 dekabr 2020-ci il və 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş S.Cəfərov ölümündən sonra “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə”, “İgidliyə görə”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Qeyd edək ki, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə Səidin bacısı Aygün və qardaşı Seymur polis orqanlarına xidmətə qəbul ediliblər.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Çevikdirlər, cəsurdurlar...

## Vətəndaş məmnundursa, deməli, asayiş etibarlı qorunur



“Yanğın zamanı ölümlə üzbəüz qalan bir ailənin üç üzvünün həyatının polis tərəfindən xilas edilməsinin şahidi olanlar o anları bir ömür boyu unutmayacaqlar. Sözdə yox, əməldə xilaskarların həyat hekayəsinin əvvəli də təhlükə ilə başlayır, sonu da təhlükə ilə bitir. Bu bizim alın yazımıza çevrilən xidmətimizdir. Peşəmizlə məsuliyyət sözünün bir vurğu altında deyilməsi hər an gərəkli olduğumuzu bizə xatırladır.”

Bu fikirləri həmsöhbətimiz **ƏÇPA 10-cu Patrul Bölüyünün komandiri, polis baş leytenantı Nəbi Məmmədov** deyir. Adı fəaliyyətinin devizinə çevrilən, daxili işlər orqanlarının sınaqlarından keçən strukturunda ictimai asayişin və qaydanın qorunmasında ən böyük iş yükünün məhz bayır xidmətinin üzərinə düşdüyünə diqqət çəkən N.Məmmədov çevik, ayıq-sayıq olmalarını ona görə vacib amillərdən hesab edir ki, vətəndaş güvənc yeri bildiyi, etibar etdiyi polisin ona təhlükədən daha yaxın olduğunu daim hiss etsin. Ələlxüsus da mövzu insan həyatının xilası olarsa...

Hadisəyə gəlincə... Yanğın Qaradağ rayonu Qobu park yaşayış massivində baş verib. Belə ki, son zəng günü ilə əlaqədar həmin ərazidə ictimai asayişin, eləcə də təhlükəsizliyin qorunmasına cəlb olunan **Qaradağ RPİ Əlahiddə Çevik Polis Alayının 10-cu Patrul Bölüyünün əməkdaşları-manqa komandiri, polis baş serjantı Balaxan Novruzov, polis serjantları Tamerlan Mustafazadə, Vüsal Rəsulov, Elgiz Musayev və polis kiçik serjantı Saleh Abdulxalıqov** yaxınlıqdakı binada mənzillərdən birinin tüstüləndiyini görüblər. Manqa komandiri dərhal aidiyyəti üzrə rəhbərliyə məruzə edərək, Fövqəladə Hallar Nazirliyinə və təcili tibbi yardıma məlumat verib. Vaxt itirmədən mənzilə daxil olan paqondaşlarımız tüstüdən boğulmaq təhlükəsilə üzbəüz qalan iki azyaşlı uşağın və bir yaşlı qadının həyatını xilas ediblər.

Həmkarlarımız qonşuların köməkliyi ilə alovun söndürülməsinə də nail olublar. Beləcə, yanğının digər mənzillərə keçməsinin qarşısı qətiyyətlə alınıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Hər zaman köməyə tələsirik





Ölkə ərazisində havaların qeyri-sabit keçməsi bəzi çətinliklər yaradıb. Bir çox rayon mərkəzlərində, kəndlərdə onlarla ev qəzalı vəziyyətə düşüb, əkin sahələri su altında qalıb, sel şəxsi təsərrüfatlara ciddi ziyan vurub, ev heyvanlarını, ev quşlarını su aparıb. Təbii fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində aidiyyəti qurumlar tərəfindən müvafiq tədbirlər görülür.

Gördüyünüz bu fotolar isə Goranboyda çəkilib. Rayona yağan güclü yağış və sel daşqınından sonra Xocalı Rayon Polis Şöbəsinin əməkdaşları qəsəbə ərazisində dəymiş ziyanın aradan qaldırılmasında yaxından iştirak edirlər.

*Natiq Abdullayev,*
*polis mayoru*

# Kursantlarımız müsabiqədə fərqləniblər




DİN Polis Akademiyasının kursantları ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən bədii yaradıcılıq müsabiqə-festivalında qalib gəliblər.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalı Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə keçirilib.

Ümumilikdə respublika üzrə 28 ali təhsil müəssisəsinin qatıldığı müsabiqə-festivalın sonunda qaliblərə mükafatlar təqdim edilib. DİN-in Polis Akademiyasının komandasının üzvləri Fiziki hazırlıq kafedrasının müəllimi, polis kapitanı Natiq Eminova və Dil hazırlığı kafedrasının müəllimi Fərqanə Əliyevaya festivalın təşkili və keçirilməsində fəal iştiraklarına görə diplom verilib.

“Muğam” nominasiyası üzrə I yerə layiq görülən kursant Nuran Rəhimova (I kurs 2-ci taqım), “Vokal (Xalq mahnıları)” nominasıyası üzrə II yerə görə kursant Rəşad Həsənova (III kurs 6-cı taqım) və “Aşıq müsiqisi” nominasıyası üzrə III yer tutduğu üçün kursant Ayxan Əmirxanova (IV kurs 2-ci taqım) fəxri fərman və qiymətli hədiyyələr təqdim edilib.

Bədii yaradıcılıq müsabiqə-festivalında fəal iştirak edən Akademiyanın komandasının digər üzvləri Nurlan Hacıyev (I kurs 3-cü taqım), Elman Xəlilov (I kurs 1-ci taqım), Babək Məmmədov (I kurs 5-ci taqım) və Şahin Qənizadə (I kurs 7-ci taqım) təşkilatçılar tərəfindən diplomla təltif ediliblər.

*"Polis"*

# Füzulidə silah-sursat aşkar edilib



İşğaldan azad edilmiş ərazilərin mina və digər partlayıcı vasitələrdən təmizlənməsi, erməni hərbi birləşmələrinin geri çəkilərkən atdıqları silah-sursatın yığılması məqsədi ilə daxili işlər orqanlarının əməkdaşları tərəfindən intensiv tədbirlər yerinə yetirilir.

Füzuli Rayon Polis Şöbəsinin əməkdaşlarının rayon ərazisində keçirdikləri növbəti tədbirlər zamanı tərk edilmiş hərbi mövqelərdən müxtəlif silah-sursat aşkar ediblər. Tapılan 5 avtomat, 3 qumbaraatan, 1 pulemyot, 1 tapança, 1 minaatan, 1 tank əleyhinə idarəolunan raket sistemi, 44 növ qumbara, 7 mərmi, 2959 müxtəlif çaplı patron və digər döyüş sursatları aidiyyəti üzrə təhvil verilib.

# İCTİMAİYYƏTİN "NƏBZİ" MƏKTUBLARDIR....

Vətəndaşlardan gələn məktublar bizə, bir növ, cəmiyyətin nəbzini yoxlamağa və fəaliyyətimizi təftiş etməyə imkan verir. Elə buna görə şikayət edənin də, təqdirlə yanaşanın da fikirlərini olduqca gərəkli sayırıq. Son dövrlərdə polisdən razılıq ifadə olunan məktubların sayının artması cəmiyyətdən ciddi ictimai dəstək aldığımızı göstərir. Xüsusən, Azərbaycan Polisinin humanizmi, mərhəməti, hamının köməyinə çatmaq əzmi rəğbətlə qarşılanır, təqdir edilir, alqışlanır.

**Milli Məclisin deputatı Fəzail Ağamalının** daxili işlər naziri Vilayət Eyvazova şəhid ailələrini işə qəbulu ilə bağlı göstərdiyi dəstəyə görə ictimai qaydada ünvanladığı təşəkkürü bu baxımdan diqqət çəkir. Deputat nazirin Şirvan şəhərində vətəndaşlarla ənənəvi xarakter daşıyan görüş keçirməsini, onların qaldırdığı problemlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verməsini yada salır. Həmin görüşdə polis orqanlarında işləmək arzusunda olanların sıra baxışı keçirilmiş, xidmətə qəbulun şərtlərinə uyğun gələnlərdən 18-i Vətən müharibəsi iştirakçısı, biri isə şəhid ailəsinin üzvü olmuşdu.



General-polkovnik Vilayət Eyvazovun əmrilə artıq 12 nəfər Vətən müharibəsi iştirakçısı və şəhid ailəsinin üzvünün Salyan Rayon Polis Şöbəsində xidmətə qəbul olunduğunu qeyd edən F.Ağamalı bunu birbaşa olaraq cənab nazirin diqqət və qayğısı hesab edir: "Böyük məmnuniyyətlə, general-polkovnik Vilayət Eyvazova təmsil etdiyim Salyan rayonunun əhalisinə, xüsusilə Vətən müharibəsi iştirakçılarına və şəhid ailələrinə göstərdiyi diqqətə görə təşəkkürümü bildirirəm".

**Vətən müharibəsi iştirakçılarına DİN rəhbərliyinin məxsusi münasibət sərgilədiyini Şuşa rayon sakini Şəhriyar Kərimov da yazır.** Onun sözlərinə görə, atası Orduxan Kərimov 30 il həsrətində olduğumuz torpaqlarımızın azadlığı uğrunda gedən haqq müharibəsində iştirak edib. Bir övlad olaraq atasının müharibədən sağ-salamat geri dönməməsi ehtimalı onu narahat etsə də, Vətən sevgisi bütün ailəyə təsəlli olub.

"Cənab nazir, sizin valideynimə və hazırda daxili işlər orqanlarında xidmət edən polis qardaşıma göstərdiyiniz diqqət və qayğı məni çox sevindirir. Polis olmasam da polis ailəsinin üzvü olaraq Daxili İşlər Nazirliyinin diqqətində olmaq bizim üçün fəxrdir", - deyə qeyd edən Ş.Kərimov sonda xüsusilə vurğulayır ki, mövzu Vətən olanda son damla qanımız belə ona fədadır!

**Yasamal rayon sakini Sevil Allahverdiyeva** isə fərqli mövzuya toxunub. O, Prezident Administrasiyasının Vətəndaşların Qəbulu Mərkəzində xidmət edən polis əməkdaşı Nurlan Nurullayevin onunla və mərkəzə gələn digər vətəndaşlarla etik davranış qaydaları çərçivəsində davranışından, münasibətindən bəhs edir. Qadının öhdəsində əlil övladı, özünün də sağlamlıq vəziyyətinin ürəkaçan olmadığını biləndən sonra adıçəkilən həmkarımız ona kömək edib, aidiyyəti qəbula düşməsinə yardım edib: "Hesab edirəm ki, Prezident Admnistrasiyasının Vətəndaşların Qəbulu Mərkəzində polis əməkdaşı Nurlan Nurullayev və onun kimi işçilərin olması, həm də sizin doğru idarətemə qabiliyyətinizdən irəli gəlir. Buna görə hörmətli Prezidentə və hörmətli nazirə minnətdarlığımı bildirirəm".

*R.Mehtiyev*

# Həm mühafizə edirlər, həm də qan verib yaşadırlar



**Daxili işlər orqanlarında talassemiyadan əziyyət çəkən uşaqlara yardım məqsədilə qanvermə aksiyası ənənəyə çevrilib. Növbəti belə aksiya Sabunçu Rayon Mühafizə İdarəsində baş tutub.**

Azərbaycan Respublikası İcbari Tibbi sığorta üzrə dövlət agentliyi "Tibbi ərazi bölmələrinin idarəetmə birliyi" Publik Hüquqi şəxs Milli Hematologiya və Transfuziologiya Mərkəzi-Qan Bankı bölməsinin təşkilatçılığı ilə keçirilən aksiyada İdarənin rəhbərliyi olmaqla 49 əməkdaş iştirak edib.

Əvvəlcə əməkdaşlarımızın təziyqləri ölçülüb, qanda hemoqlobinin miqdarı müəyyənləşdirildikdən sonra sağlıq durumu imkan verənlərin ak-



siyada iştirak etmələrinə icazə verilib. Könüllülük prinsipi əsasında keçirilən qanvermədə ümumilikdə 17,5 litr qan tədarük edilib. Humanitar aksiya çərçivəsində əldə olunan qan nümunələri Respublika Mərkəzi Qan Bankına göndərilib.

Yeri gəlmişkən, Sabunçu RMİ qorunan obyektlərin etibarlı mühafizəsini həyata keçirərək üzərinə düşən öhdəlik və tapşırıqları da uğurla icra edir. Ötən müddətdə İdarə tərəfindən dövlət və özəl mülkiyyətə məxsus-onlardan 614 obyekt, 931 mənzil olmaqla, ümumilikdə 1545 obyekt mühafizə olunub. Eyni zamanda, 1518 obyekt müasir tipli siqnalizasiya sistemləri ilə təchiz edilən Mərkəzi Mühafizə Məntəqəsinə qoşulub. Əməkdaşların sayıqlığı nəticəsində 11 obyektdə, o cümlədən 2 mənzildə oğurluğun qarşısı alınarkən 16, doqquz digər cinayətlə əlaqədar 13, eləcə də narkotiklə mübarizə tədbirləri çərçivəsində 2 fakt üzrə 2 nəfər saxlanılaraq Rayon Polis İdarəsinə təhvil verilib. Bundan başqa, Mərkəzi Mühafizə Məntəqəsi ilə mühafizə olunan bir obyektdə yanğının qarşısı alınıb.

*Teymur Əlizadə, polis mayoru*

# Yadlaşan doğma, doğmalaşan polis



**Xəzər rayonunda ailədaxili zorakılığa məruz qalan qadının köməyinə yenə polis çatıb. Həyat yoldaşı tərəfindən psixoloji və fiziki təzyiq gördüyünü deyən iki uşaq anası son çarə olaraq qanun təmsilçilərinə üz tutub.**

Xəzər rayonunun Buzovna qəsəbəsində yaşayan Biləsuvar rayon sakini N.Məmmədova həyat yoldaşı O.Məmmədovun onu döyüb, evdən qovduğunu bildirərək polisdən kömək istəyib. Məmmədovlar ailəsi buna qədər də Xəzər RPİ 2-ci PŞ-də münaqişəli ailə kimi qeydiyyatda olub. Evindən-eşiyindən, övladlarından ayrı düşən, üstəlik doğmalarının da ondan üz döndərməsi ilə dərin psixoloji böhran keçirən N.Məmmədova yaxınlarından görmədiyi doğmalığı yalnız polis idarəsində tapa bilib.

Qadının vəziyyətini dərhal nəzarətə götürən Xəzər RPİ **İcTŞ-nin baş inspektoru, polis kapitanı Xəyalə Həsənova** onunla apardığı profilaktik söhbətdən sonra hüquq və təhlükəsizliyinin qorunması məqsədi ilə qanunda nəzərdə tutulan tədbirləri başladıb. Daha sonra isə o, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin nəzdində fəaliyyət göstərən sığınacağa yerləşdirilib.

Yeri gəlmişkən, ictimai birliyin rəhbəri Mehriban Zeynalova bu məsələ ilə bağlı özünün feysbuk səhifəsində paylaşım edib və həmkarımız, polis kapitanı Xəyalə Həsənovanın fəaliyyətini yüksək qiymətləndirərək, Daxili İşlər Nazirliyinə və Bakı Şəhər Baş Polis İdarəsinə səmimi təşəkkürünü bildirib.

O, yazıb: "Arzuladığımız polis obrazı. Oturuşu, duruşu, təqdimatı, problemə yanaşması, vəzifə məsuliyyəti ilə yanaşı insanlıq xüsusiyyəti ilə məni valeh etdi Xəyalə xanım. Xanım polis əməkdaşları arzularımızın gerçəkləşməsidir. Əlaxüsus da bu obraz və məsuliyyət yükünü bütünlüklə beynəlxalq standartlarla yerinə yetirməyi bacaranlar. Bir sözlə mükəmməl. Təşəkkürlər belə kadrlara görə!"

*Rəşad Mehtiyev, polis baş serjantı*

# Tərəfsiz, şəffaf və obyektiv



Paytaxt sakini Heydər Sədullahlı yaşadığı binanın həyətində saxladığı avtomobilinin gecə saatlarında naməlum şəxs tərəfindən vurulması, eləcə də qəzanı törətmiş sürücünün hadisə yerindən yayınması ilə bağlı Xətai RPİ Dövlət Yol Polisi Şöbəsinə ərizə ilə müraciət edib. Müraciət əsasında **DYPŞ-nin axtarış üzrə inspektoru, polis kapitanı Polad Xəlilov** dərhal axtarış işlərinə başlayıb.

İlk olaraq binanın təhlükəsizlik kameraları incələnib. Sonra hadisə şahidləri dinlənilib. Məlum olub ki, hadisə "KİA RİO" markalı avtomobilin sahibi tərəfindən törədilib. Keçirilən təxirəsalınmaz axtarış tədbirləri nəticəsində sözügedən avtomobil "Kənd Əhmədli" adlanan ərazidə aşkarlanıb. Hadisəni törədən sürücünün şəxsiyyəti müəyyənləşdirilib və o, şöbəyə dəvət olunub. Ona mövcud qanunvericiliyin tələbləri izah edilib, haqqında qanuna müvafiq tədbir görülüb.

Tərəflər razılığa gəlib və "KİA OPTİMA" markalı avtomobilin sahibinə dəymiş maddi ziyan ödənilib.

Vətəndaş H.Sədullahlı üzləşdiyi bu hadisə ilə bağlı operativ və obyektiv araşdırılma aparıldığına, ədalətin bərqərar olunmasında, eləcə də ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə Xətai RPİ Dövlət Yol Polisi Şöbəsinin rəhbərliyinə və şəxsi heyətinə minnətdarlıq məktubu ünvanlamağı da unutmayıb.

Yeri gəlmişkən, Xətai RPİ DYPŞ-nin əməkdaşları cari ilin yanvar ayının 1-dən iyun ayının 28-dək olan müddət ərzində ümumilikdə 16 min 665 inzibati xəta aşkarlayıblar. Bunlardan, 2 min 252-si kobud qayda pozuntusu olub. Hadisə yerindən yayınan 99, eləcə də 97 sərxoş sürücüyə inzibati protokollar tərtib edilib. Bundan başqa, 2 avtoxuliqan da məsuliyyətə cəlb olunub.

*T.Əlizadə*

# Qalibiyyətə aparan arzular...



"Ən böyük arzum tanınmış idmançı olmaqdır. Addım-addım dünyanı fəth etmək üçün Dünya və Olimpiya çempionatlarında iştirak edəcəyim günü gözləyirəm. Vətənimizin bayrağı kimi hər zaman ucalarda olmaq istəyirəm"...

O, idmana ilk addımlarını DİN-nin İdman Cəmiyyətində atıb. Kiçik yaşlarından cui-citsu ilə məşğul olub Banuçiçək Nəsirli. Ötən illərdə cui-citsu üzrə keçirilən Respublika çempionatlarında 2 dəfə qalib olub. Hazırda boksla məşğul olan Banuçiçək yarışlarda DİN-nin İdman Cəmiyyətini təmsil edir. O, bu günlərdə Milli Olimpiya Komitəsinin yaranmasının 30 illik yubileyinə həsr olunmuş 2008-2009-cu il təvəllüdlü məktəbli oğlanlar və qızlar arasında boks üzrə Respublika birinciliyi üzrə keçirilən yarışda 46 kiloqram çəki dərəcəsində birincilik əldə edib.

**Banuçiçək Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Şöbəsinin Dövlət Yol müfəttişi, polis baş leytenantı Cavid Nəsirlinin** övladıdır.

13 yaşlı idmançı qızın xəyallarının gerçəkləşməsi, Azərbaycanımızın bayrağını yüksək arenalarda dalğalandırması arzusu ilə...

*Ruhiyyə Əliyeva, polis kapitanı*

# Polislərin şahmat turniri



DİN-in İdman Cəmiyyətində təqvim planına uyğun olaraq daxili işlər orqanlarının əməkdaşları arasında şahmat turniri keçirilib.

Yarışdan öncə Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən İdman Cəmiyyətinin rəisi, polis polkovniki Zemfira Meftahətdinova polis əməkdaşları arasında şahmat yarışlarının keçirilməsinin ənənə halını aldığını, həmkarlarımızın idmanın başqa növlərində olduğu kimi, bu sahədə də özlərini sınadıqlarını və nailiyyətlər qazandıqlarını bildirib, iştirakçılara uğurlar arzulayıb.

Daha sonra turnirə start verilib.

DİN İdman Cəmiyyətinin idmanın təşkili şöbəsinin rəisi, polis polkovnik-leytenantı Munir Orucov qəzetimizə bildirib ki, iyunun 27-də başlayan və üç gün davam edən yarışda 12 komanda tərkibində 24 polis əməkdaşı zehni-strateji bacarığını nümayiş etdirib. İsveç sistemi üzrə keçirilən 7 turdan ibarət yarışın nəticələrinə görə, Polis Akademiyasının kursantları Əli Əliyev və Hacıəli Əhədzadə komandalarını turnirin qalibi ediblər.

İkinci yerə Əlahiddə Çevik Polis Alayının komandası layiq görülüb. Alayın komandasını polis sıravisi Orxan Nəbiyev və polis serjantı Cavid Cavadov təmsil edib. Baş Mühafizə İdarəsinin əməkdaşları, polis mayoru Elnur Sultanov və polis serjantı Fuad Qurbanov isə komandalarını üçüncü yerə çıxarıblar.



Şöbə rəisinin sözlərinə görə, polislər arasında keçirilən şahmat turnirinə ilk dəfə xanım həmkarımız da qatılıb. DİN Arxiv İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Sevda Məmmədova şəxsi birincilikdə 4-cü yer tutub.

Sonda qaliblərə kubok, medal və qiymətli hədiyyələr təqdim edilib.

*Rəşad Mehtiyev*

# İlk medalını qazandı



Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Bakı Su İdman Sarayında İPSU EURASİA güc idman növləri üzrə təşkil olunan çempionat başa çatıb.

Həmin çempionatda iştirak edənlərin sırasında **Quba Rayon Polis Şöbəsinin müvəqqəti saxlama yerinin polis nəfəri, polis serjantı Məhərrəm Qəhrəmanov** da yer alıb.

Həmkarımız ilk yarışında sinədən sıxma (bench press) hərəkətində 110 kiloqram çəki dərəcəsində bütün rəqiblərini geridə qoyaraq qalib olub.

"Polis"in kollektivi də həmkarımıza gələcəkdə daha yüksək nəticələr qazanmasını və mötəbər turnirlərin qalibi olmasını arzu edir.

*R.Vəliyev*

# "Dəmir yumruq"lu polis övladı



Rumıniyanın Georgeni şəhərində yeniyetmə və məktəbli boksçular arasında keçirilən beynəlxalq turnir başa çatıb. On iki ölkədən 200-dən artıq boksçunun iştirak etdiyi turnirə milli komandamız 8 idmançı ilə qatılıb.

Qadın boksçuların yarışında ölkəmizin idman şərəfini qoruyan **DİN İdman Cəmiyyətinin yetirməsi Emili Rzayeva** 70 kiloqram çəki dərəcəsində bolqarıstanlı Tatyana Lyubenovanı 5:0 hesabı ilə məğlub edib. Daha sonra o, meydan sahibi rumıniyalı Maria Tanaseskuya göz açmağa imkan verməyərək beynəlxalq turnirin qalibi olub. İdmançımızı bu yarışa məşqçi Zaur Həbibullayev hazırlayıb.

"Polis"lə qələbə sevincini bölüşən E.Rzayeva bildirdi ki, final döyüşünün Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranması gününə təsadüf etməsi onu qələbəyə ruhlandırıb. Və sübut edib ki, azərbaycanlılar döyüş meydanında olduğu kimi, idman arenalarından da qalib ayrılırlar.

Qeyd edək ki, Emili Rzayevanı avqust ayında Konya şəhərində keçiriləcək V İslam Həmrəyliyi Oyunlarında, sentyabrda isə İtaliyada boks üzrə Avropa çempionatında gərgin döyüşlər gözləyir.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Tədbirlər davam etdirilir

**Şuşa Rayon Polis Şöbəsinin və Dövlət Təhlükəsizlik Xidmətinin** əməkdaşlarının birgə keçirdikləri profilaktiki tədbirlər nəticəsində yabanı halda bitmiş narkotik tərkibli bitkilər aşkar olunub.

Tədbir zamanı rayonun Daşaltı kəndinin ərazisində yabanı halda bitən çəkisi 1 tondan artıq olan 2 min 350 ədəd çətənə bitkisi yandırılaraq məhv edilib.

◆◆◆

**Beyləqan RPŞ** əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik tərkibli vasitələri satış məqsədi ilə əldə etməkdə şübhəli bilinən rayon sakinləri Vaqif Əsədov və Vüsal Abdullayev saxlanılıblar. Həmin şəxslər Beyləqan rayon ərazisindən keçən magistral yolda müəyyən ediliblər. Onlara məxsus torbaya baxış keçirilən zaman 5 ədəd polietilen qablaşdırmada ümumi çəkisi 5 kiloqram 430 qram olan heroin və 300 ədəd güclü təsiredici xassəyə malik preqabalin həbləri aşkar edilərək götürülüb.



Faktla bağlı Beyləqan RPŞ-də Cinayət Məcəlləsinin 234.4.1, 234.4.3 və 240.3.2-ci maddələri ilə cinayət işi başlanılıb və adıçəkilən şəxslər barəsində rayon məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Nərimanov RPİ-nin 16-cı Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisində "Wolksvagen", "Hyundai" və "KİA" markalı 3 avtomobildən pul, sənəd və kosmetik əşyalar oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş R.Quliyev saxlanılıb.

◆◆◆

**Abşeron Rayon Polis İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Xırdalan şəhəri ərazisində Bakı şəhər sakini T.Səfərova zor tətbiq edərək mobil telefonunu, 30 manatını talamaqda və bıçaqla ayaq nahiyəsinə xəsarət yetirməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuşlar - Şamaxı rayon sakini K.Əhmədov və Ağdam rayon sakini V.Kərimov saxlanılıblar.

Faktla bağlı Cinayət Məcəlləsinin 181-ci (quldurluq) maddəsi ilə cinayət işi başlanılıb.

◆◆◆

**Nizami RPİ-nin 24-cü Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 10-da Saatlı rayon sakini M.Babayevanın bank hesabından 390 manatı oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Səmədov, iyunun 22-də isə Bakı şəhər sakini A.Cumayevin bank hesabından 800 manatını oğurlamaqda şübhəli bilinən Bərdə rayon sakini, əvvəllər məhkum olunmuş V.Hüseynov müəyyən edilərək saxlanılıblar.

◆◆◆

**Səbail RPİ 41-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini N.Əhmədzadə saxlanılıb. Şəxsi axtarış zamanı ondan 5 qramdan artıq heroin aşkar edilib. Davam etdirilən tədbirlərlə onun evinə baxış zamanı oradan əlavə olaraq 3 kiloqram 34 qram heroin götürülüb.

◆◆◆

**Suraxanı Rayon Polis İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Əmircan qəsəbə sakini Z.Xeyrullayev saxlanılıb. Şəxsi axtarış zamanı ondan 15 qrama yaxın heroin aşkar edilib. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı oradan əlavə 1 kiloqram 31 qrama yaxın heroin və elektron tərəzi götürülüb.




# Sosial qorxu nədir?

Sosial fobiya insanın sosial vəziyyətlərə qarşı olan qorxu duyğusunun olmasıdır.

Belə insanlar bəzən adi bir işdən ötrü həftələrlə, aylarla qorxu içərisində yaşayırlar. Onlar öz qorxularının əhəmiyyətsiz olduğunu düşünsələr də, bu fikirdən uzaqlaşa bilmirlər.

Sosial fobiyası olan insanlar aşağıdakılardan uzaq durmağa çalışırlar:

❖başqalarının qarşısında yemək və ya içki içmək
❖başqalarının qarşısında yazmaq və ya oxumaq
❖diqqətini toplamaq
❖yığıncaqlara getmək
❖iclaslarda çıxış etmək
❖ümumi tualetdən istifadə etmək
❖telefonla danışmaq

Sosial fobiyası olan insanlarda panikaya düşmək, depressiya və digər diqqət pozğunluqları müşahidə edilir. Belə insanlar xasiyyətlərindən dolayı işlərinin düz getmədiyini bilsələr də özünü ələ ala bilmirlər.

Sosial fobiyası olan insanlarda aşağıdakı əlamətlər özünü büruzə verə bilir:

❖sosial vəziyyətlərdən uzaqlaşma
❖diqqətsizlik, ürək sıxıntısı, titrətmə



❖mədə turşuluğunun artması
❖bağırsaq problemləri

İnsanlarda sosial qorxunun baş verməsinin səbəbləri bioloji, psixoloji və ətraf mühitdən (söz-söhbətdən, qeybətdən) qorxmadır.

Sosial fobiya xəstəlik hesab edilmir, amma onun müalicəsi psixoloqlar tərəfindən aparılır.

*Natiq Abdullayev*

# STATİSTİKA

## Kriminal icmal

⬢ İyunun 22-dən 29-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 347-nin, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 53-nün açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.

⬢ Axtarışda olduğuna görə ümumilikdə 432, o cümlədən borclu şəxs qismində axtarışda olan 288 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

⬢ Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 16 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 20 nəfər ölüb, 14 nəfər isə xəsarət alıb.

⬢ Narkotiklərlə əlaqəli 184, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 14 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9236
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik